A. Samirə

T.T. VƏLİYEV, A.Ş. ŞAHMURADOV

# SLAVYAN ÖLKƏLƏRİ TARİXİ
## (XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri)

**Ali məktəblər üçün dərslik**

Dərslik Bakı Dövlət Universiteti Tarix fakültəsi Elmi Şurasının 5 mart 2012-ci il tarixli iclasının (protokol № 7) qərarı ilə çap olunmuşdur

**Bakı - 2012**

**Elmi redaktor: t.e.d., prof. T.T. Vəliyev**

**Rəyçilər: t.e.d.. prof. R.C. Süleymanov**
**t. e.d., dos. H.N. Məmmədov**

9(4)
V56

**T.T. Vəliyev, A.Ş. Şahmuradov.** Slavyan ölkələri tarixi (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri). Ali məktəblər üçün dərslik. "Vətən" nəşriyyatı. Bakı, 2012

Dərslikdə XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində slavyan ölkələrinin (Rusiya imperiyası, Polşa, Çexiya, Slovakiya, Bolqarıstan, Serbiya, Çernoqoriya, Bosniya-Hertseqovina, Xorvatiya, Sloveniya, Makedoniya) sosial-iqtisadi həyatı, daxili siyasi vəziyyəti, milli və ictimai hərəkatı, xarici siyasəti və mədəniyyətindən bəhs olunur.

Ali məktəblərin humanitar fakültələrinin bakalavr və magistrləri üçün nəzərdə tutulmuş bu dərslikdən slavyan ölkələrinin tarixi ilə maraqlanan oxucular da istifadə edə bilərlər.

$\frac{\mathbf{030}}{\mathbf{14052012}}$ *qrifli nəşr*

**İSBN 5-89968-016-4**

# GİRİŞ

Slavyan ölkələri Avropanın mərkəzində, şərqində və cənubunda geniş ərazini əhatə edir. Azərbaycanda bu ölkələrin tarixinin öyrənilməsi bir sıra amillərlə şərtləndirilir. Bir tərəfdən, slavyan ölkələri tarixi ümumdünya tarixinin mühüm tərkib hissəsi olmaqla diqqəti cəlb edir, digər tərəfdən isə, Azərbaycanın slavyan xalqları ilə, xüsusilə şərq slavyanları ilə çoxəsrlik tarixi əlaqələri mövcuddur. Başqa sözlə, slavyan ölkələri tarixinin öyrənilməsi həm də, Azərbaycan tarixi ilə bağlı bəzi məsələlərin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Bu gün Azərbaycanın bir sıra ali məktəblərində slavyan ölkələri tarixi öyrənilir, ancaq azərbaycan dilində yazılmış dərsliklər baxımından, bu sahədə böyük boşluq mövcuddur və bu dərslik həmin boşluğun müəyyən hissəsini aradan qaldırmaq zərurətindən meydana gəlmişdir.

Üç bölmədən ibarət olan dərslik xronoloji baxımdan XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərini əhatə edir. "Şərqi slavyan ölkələri XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində" adlı birinci bölmə Rusiya imperiyasının sosial-iqtisadi, siyasi və mədəni həyatında baş vermiş prosesləri əhatə edir. XIX əsrin 60-70-ci illərində həyata keçirilmiş burjua islahatları və onların Rusiya imperiyasının sonrakı inkişafına təsiri, imperiya hakimiyyət orqanlarının daxili siyasəti, ictimai hərəkat və inqilabi hadisələr, çarizmin işğalçı xarici siyasəti, Birinci dünya müharibəsində iştirakı və onun nəticələri, Fevral inqilabı və ikihakimiyyətlilik, imperiyada mədəniyyətin vəziyyəti kimi məsələlər bu bölmədə diqqət mərkəzində saxlanılmışdır.

İkinci bölmə "Qərbi slavyan ölkələri XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində" adlanır və Rusiya imperiyasının tərkibində olmuş Polşa Çarlığının, Prussiya (Almaniya) imperiyasının tərkib hissəsi olmuş Qərbi Polşa